RABİL SÜLEYMANLI

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN DENİKİN TƏHLÜKƏSİNİ ARADAN QALDIRMAQ YOLUNDAKI DİPLOMATİK FƏALİYYƏTİ

1919-cu ilin may ayının ilk günlərində Denikin qoşunları Petrovsk və Dərbəndi tutaraq Azərbaycanın müstəqilliyi üçün təhlükə yaratdı. Könüllülər Ordusu komandanlığına göndərdiyi etiraz məktubunda Dağıstan şeyxülislamı Əli Hacı Akuşinski bu aksiyanı «Dağıstan xalqının iradəsinə qarşı açıq zorakılıq, demokratik dəyərlərin tapdanması, müqəddəs şəriət qanunlarının pozulması» kimi dəyərləndirirdi [1.257].

Azərbaycan ictimaiyyəti Dağıstandakı olaylardan, müstəqil Dağlı Respublikasının süqutundan böyük rahatsızlıq keçirirdi. Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin təhlükədə olduğu getdikcə aydınlaşırdı. Azərbaycan Xarici İşlər Nazirliyinin diplomatik şöbəsində etiraz notası hazırlanırdı. Nota təcili olaraq Britaniya komandanlığına çatdırıldı. Sənəddə Denikin ordusunun ölkənin quzey sərhədlərində yerləşdirilməsi Azərbaycanın müstəqilliyinə böyük təhlükə kimi qiymətləndirilir, Könüllülər Ordusunun geri çəkilməsi üçün qəti və təxirəsalınmaz tədbirlər görülməsi xahiş edilirdi [2.12].

Bakıdakı Britaniya qoşunlarının qərargahı yanında Denikinin nümayəndəsi polkovnik Lazarev Azərbaycan hökumətinin rahatsızlığına cavab olaraq baş nazir Nəsib bəy Yusifbəyova Könüllülər Ordusunun Azərbaycana münasibətdə loyallığını bildirmişdi [3.1-3]. Britaniya komandanlığı da Xarici İşlər Nazirliyini buna əmin edirdi.

Dağlı xalqların müstəqilliyini müdafiə edən Azərbaycan bu işğala öz etirazını bildirmişdi. Azərbaycan Respublikası hökuməti adından Paris Sülh konfransındakı müttəfiq dövlətlərə 1919-cu il 28 mayda göndərilən Memorandumda deyilirdi: "...Mübahisəli ərazi məsələlərindən başqa digər bir məsələ – dağlılar Respublikası, onların müstəqilliyi məsələsi də var ki, bu müstəqilliyə general Denikinin könüllülər ordusu tərəfindən dəfələrlə qəsd edilmişdir. Azərbaycan Respublikasının mövqeyi belədir ki, əhalisi tamamilə müsəlmanlardan ibarət olan Dağıstan, İnquşetiya, Çeçenistan, Kabarda, Osetiya və b. Öz müqəddəratlarını azad təyin etmə hüququna arxalanaraq Azərbaycanın heç bir iddiası olmayan müstəqil dövlət yaratmalıdırlar. ... Azərbaycan Respublikası öz müstəqilliyini elan edəndən sonra bu günə qədər qanun və ədalət prinsipləri əsasında fəaliyyət göstərərək milli azadlaqların hüquqlarına böyük hörmətlə yanaşmışdır" [4.228].

Lazarev 1919-cu il 21 mayda Azərbaycan hökumətinə göndərdiyi məktubda yazırdı: "Rusiyanın cənubundakı silahlı qüvvələrin baş komandanından aldığım teleqramma əsasən Sizə aşağıdakıları bildirirəm: Rusiyanın cənubundakı silahlı qüvvələrin (könüllülər ordusunun) baş komandanı bildirir ki, Azərbaycana qarşı heç bir təcavüzkar hərəkət etməyə hazırlaşmır və onun müstəqilliyini tanıyır. Rusiya bolşeviklərdən azad edildikdən sonra keçmiş Rusiya imperiyası ərazisində yeni yaranmış dövlətlərlə münasibətə xalq yığıncağı və ya bolşeviklərə qarşı mübarizə aparan bütün silahlı qüvvələrin tabe olduğu ali hakimiyyət baxacaqdır" [5.23].

Buna baxmayaraq, bir neçə gündən sonra Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyi diplomatik kanallarla Denikinin Biləcəriyə qədər dəmir yolunu və Bakı limanını tutmaq istədiyi haqqında xəbərlər almağa başladı. Mətbuatda yayılan xəbərlərə görə, Denikin Yalama stansiyası - Qızılburun xəttini Azərbaycan

sərhədi sayırdı [5.23].

Artıq Xarici İşlər Nazirliyi başçılarının Denikinin təcavüzə əl atajağına şübhəsi qalmırdı. Təhlükə sezilən kimi Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyi Kuban Respublikasındakı diplomatik nümayəndəsi Cəfər bəy Rüstəmbəyovun vasitəsilə Denikinin özüylə əlaqə yaratdı və ölkəni maraqlandıran bir sıra suallara cavab tapmağa cəhd göstərdi. Azərbaycan diplomatları ilə Denikin arasında vasitəçilik missiyasını Britaniyanın Yekaterinadordakı hərbi missiyasının rəhbəri general Briqs öz üzərinə götürmüşdü. 1919-cu il iyunun 1-də generalla söhbətində Rüstəmbəyov demişdi: »Sizin Petrovsk və Dərbəndi tutmanızı mənim hökumətim bəyənə bilməz» [5.7]. Briqs də Rüstəmbəyovu əmin edirdi ki, general Denikin Azərbaycan Xalq Cümhuriyyətinə qarşı hər hansı aqressiv addımlar «atmayıb, atmır, atmağa hazırlaşmır» [5.5].

Daha sonra Briqs Azərbaycan Xalq Cümhuriyyətinin «bolşeviklərlə - onların mədəniyyətlərinin qənimi ilə «mübarizə aparan» Könüllülər Ordusu ilə ən səmimi münasibətlər qurmalı olduğunu vurğulayırdı. Azərbaycan general Denikinə minnətdar olmalıdır. Çünki o, öz cəbhəsini bolşeviklərdən qorumaqla həm də Azərbaycanı bolşevik hücumlarından qorumuş olur» [5.5].

General Briqslə söhbətində Rüstəmbəyov Xarici İşlər Nazirliyinin Denikinlə qarşılıqlı münasibətlər üzrə mövqeyini olduqja dəqiq, lakonik ifadə etmişdi: «Azərbaycan bütün ölkələrlə dost münasibətlər qurmaq arzusundadır. Biz heç kimlə münasibətlərimizi pozmağı düşünmürük. Ancaq ölkənin müstəqilliyini elan edən hökumət onu həm daxildən, həm də xaricdən gələn bütün qəsdlərdən qoruyur» [5.6].

İyunun 3-də Briqs Rüstəmbəyovu Denikinlə görüşə dəvət edir. Bu dəfə onlar məxfi diplomatik görüş keçirirlər. Söhbətin gedişində Rüstəmbəyov bildirmişdi ki, Könüllülər Ordusunun Dağlı Respublikasının sərhədlərini keçməsi, dağlıların özünütəyin haqqını tapdaması belə bir addımın Azərbaycan Xalq Cümhuriyyətinə qarşı da atılacağını düşünməyə əsas vermişdi [5.7].

Denikin öz sırasında Azərbaycana qarşı hər hansı aqressiv fikirlərinin olmadığını, Azərbaycanla diplomatik nümayəndəlik mübadiləsinə hazırlığını bildirmişdi. Bununla yanaşı, o, faktiki olaraq Azərbaycan Xalq Cümhuriyyəti hökumətini Könüllü Ordunun zabitlərini tutmaqda suçlayaraq Azərbaycanda baş verənlərdən ətraflı xəbərdar olduğunu deyirdi [6.117].

1919-cu il iyunun 7-də Cəfər bəy Rüstəmbəyov xarici işlər naziri Məmməd Yusif Cəfərova Denikinlə görüşü haqqında informasiya verdi və bundan sonra Kubanda hansı addımlar atacağı ilə bağlı təcili xəbər göndərilməsini xahiş etdi.

Yaranan həyəcanlı durumu müzakirə etmək, Denikin ordusu tərəfdən gələ biləcək təhlükəyə qarşı operativ tədbir görmək üçün 1919-cu il iyunun 5-də parlamentin iki fövqəladə toplantısı keçirildi. Hər iki tədbirdə Xarici İşlər Nazirliyi nümayəndələri fəal iştirak edirdi. Birinci toplantıda baş nazir Nəsib bəy Yusifbəyli Denikinin söylədiklərinin səmimi olmadığını deyirdi. Rusiyanın güneyindəki Silahlı Qüvvələr qərargahının hərbi-dəniz bölməsinin rəisi, general-leytenant Lukanskidən aldığı sənədi məclis iştirakçılarına açıqlayan Yusifbəyli diqqəti burada yazılan belə bir ifadəyə yönəldirdi: «Rusiyanın formalaşdırılacaq ali hakimiyyəti Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini tanımayana qədər Könüllülər Ordusu Azərbaycanı müstəqil dövlət saymayacaq» [7.120]. Baş nazir Denikin qoşunlarının Azərbaycana real təhlükə yaratdığını vurğulayırdı. Artıq bu toplantıda Azərbaycanla Gürcüstanın siyasi və diplomatik səylərinin (mümkün təhlükəyə müqavimət göstərmək üçün) birləşdirilməsi fikri səsləndirilirdi.

Azərbaycan Parlamentinin məsləhəti ilə fövqəladə səlahiyyətləri olan xüsusi orqan - Dövlət Müdafiə Komitəsi yaradıldı. Baş nazir Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi DMK-da Xarici İşlər Nazirliyi başçısı Məmməd Yusif Cəfərov da təmsil olunurdu [7.120].

Dövlət Müdafiə Komitəsinin 1919-cu il iyunun 11-də qəbul etdiyi qərarla bütün ölkə ərazisində hərbi vəziyyət elan olundu [8.31]. Xarici İşlər Nazirliyi də fəaliyyətini son dərəcə gücləndirərək diplomatik kanallarla ardıcıl danışıqlar aparmağa başladı.

Denikin qoşunlarının tutduğu Rusiya ərazilərində çap olunan mətbuatın Azərbaycan hökumətini bolşeviklərə neft satmaqda suçlayan məqalələrinə cavab olaraq Cəfər bəy Rüstəmbəyov bildirirdi ki, hələlik hökumət əgər Həştərxandan belə bir təklif olarsa, işbirliyi quracağını düşünür: «Rusiyadakı siyasi qrupların mübarizəsinə gəlincə, Azərbaycan Xalq Cümhuriyyəti bu məsələdə neytrallığını saxlayır, heç bir halda bu məsələlərə qarışmamağa üctünlük verir» [9.58-61]. C.Rüstəmbəyov eyni zamanda, Xarici İşlər Nazirliyinin tapşırığı ilə Denikinlə münasibətləri yetərincə sərin olan Kuban hökuməti ilə daha sıx diplomatik münasibətlər qurmuşdu [9.58-61].

C.Rüstəmbəyovun bu yöndə işi o qədər uğurlu alınmışdı ki, Azərbaycan Xalq Cümhuriyyəti nümayəndələrinə Kuban Radası adından keçiriləcək konfransa dəvət göndərilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətindən isə Kuban azadlıq hərəkatına mənəvi dəstək göstərilməsi xahiş olunurdu.

Briqslə davamlı söhbətlərində C.Rüstəmbəyov Denikinin Azərbaycan Xalq Cümhuriyyətinə münasibətini daha dəqiqliklə öyrənməyə cəhd edirdi. Onun 1919-cu ilin iyununda Xarici İşlər Nazirliyinə göndərdiyi xəbərdə yazılmışdı: «Onların bizim ölkəyə düşmənçiliyi görünür» [9.58-61]. Ancaq Azərbaycan hökumətinin qəti mövqeyi, Xarici İşlər Nazirliyinin fəal işi bir sıra müsbət nəticələr verirdi.

1919-cu il iyunun 11-də general Korn Nəsib bəy Yusifbəyliyə Könüllülər Ordusu ilə Azərbaycan arasında Port-Petrovskdan 5 mil güneydən keçən yeni demarkasiya xəttinin təyin edildiyini xəbər verdi [10.7]. Bu, birinci kiçik qələbə idi. Denikin ordusu tərəfdən gələn təhlükə Azərbaycanla Gürcüstanı daha da yaxınlaşdırdı.

1919-cu il iyunun 17-də Azərbaycan Xalq Cümhuriyyəti xarici işlər naziri Cəfərovun iştirakı ilə Tiflisdə iki ölkənin hökumətləri arasında 3 illiyə hərbi-müdafiə sazişi imzalandı [9.58]. Sənədin 6-cı bəndində göstərilirdi ki, «razılığa gələn tərəflər hər iki dövlətin müstəqilliyinin, suveren hüquqlarının qorunmasına yönələn birgə bəyanatlar veməyi və diplomatik danışıqlar aparmağı öhdəyə götürür» [10.20].

Hər iki ölkə Ermənistana sazişə qoşulmaq üçün iki həftə vaxt versə də, daşnaklar nəinki bununla razılaşmadılar, əksinə, Denikinlə daha sıx münasibətdə olduqlarını nümayiş etdirdilər.

Saziş imzalanandan sonra iki ölkənin xarici işlər nazirlikləri arasında əlaqələr bir qədər də dərinləşdi. Nazirliklər xüsusən Denikin qoşunları tərəfdən gələ biləcək təhlükələrin qarşısının alınması üçün beynəlxalq məkanda birgə tədbirlər həyata keçirirdilər. Onu da vurğulamaq vacibdir ki, Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyi Denikinlə danışıqlar aparmaq kimi məsuliyyətli vəzifəni öhdəsinə götürmüşdü. Çünki, Gürcüstan Respublikası faktiki olaraq Denikin ordusu ilə müharibə vəziyyətində idi.

1919-cu ilin iyul-avqust aylarında Xarici İşlər Nazirliyi aparatı Azərbaycan hökmətinin Denikinin Xəzər Hərbi Donanmasına iddialarına rəsmi münasibəti açıqlanan diplomatik sənədlər üzərində işləyirdi. Xəzər dənizində gəmilərin Azərbaycan milli bayrağı ilə üzməsinə qadağa qoyulması cəhdlərinə də operativ reak-

siya verilməliydi. Xarici İşlər Nazirliyi əməkdaşları A.Sübhanverdixanov, A.Şepotyev Xarici İşlər Nazirliyi başçılarını məruzə-lərində vurğulayırdılar ki, Britaniya qoşunları komandanlığının Könüllülər Ordusunun iddialarını açıq-aydın dəstəkləməsi Azərbaycan diplomatiyasının qarşısında böyük əngələ çevrilib.

1919-cu il avqustun 3-də Azərbaycan mətbuatında Xəzər Hərbi Donanmasının Denikinə verilməsilə bağlı Nazirlər Sovetinin sədri N.Yusifbəylinin Britaniyanın Zaqafqaziyadakı hərbi qüvvələrinin komandanı Korna göndərdiyi nota dərc edildi. Sənəddə deyilirdi: Dövlətin bütövlüyü və ərazi toxunulmazlığı keşiyində duran, həmçinin ölkədə sakitlik və qayda-qanunun qorunmasında maraqlı olan respublika hökuməti Xəzər dənizində çətinliklə əldə edilən təhlükəsizliyin pozulmasına yönələn səylərin güclənməsinə dözə bilməz. Xəzər dənizində əldə edilən bu sakitliyin əsas səbəbi Xəzər hərbi donanmasının bu günə qədər əhali arasında nüfuz və inam qazanan ingilis komandanlığı altında olmasıdır. Xəzər hərbi donanmasının bir hissəsinin Könüllülər Ordusuna verilməsi Azərbaycanın suverenliyi və ərazi toxunulmazlığına birbaşa təhlükə yaradır və bu fakta Azərbaycana qarşı olan qüvvələrin güclənməsi fonunda özünün həyati maraqlarının inkar edilməsi kimi baxan xalq kütlələri təbii olaraq həyəcan keçirir. ... Bu fakta qəti etirazımı bildirir və şəraiti gərginləşdirməmək üçün Xəzər hərbi donanmasının bir hissəsinin Könüllülər Ordusuna verilməsi haqqındakı qərarı ləğv etmənizi xahiş eldirəm". Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ədalətsiz qərarın ləğv edilməsi üçün iki dəfə müraciət etsə də Tomson buna etiraz etmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qətiyyətli, dönməz mövqeyi, daxili işlər nazirliyi qüvvələrinin güjləndirilməsi sayəsində Azərbaycan Xalq Cümhuriyyəti donanmasının bütövlüyü və toxunulmazlığını saxlamaq mümkün oldu.

Könüllülər Ordusunun tutduğu ərazidə mövqeyini möhkəmləndirmək məqsədilə Xarici İşlər Nazirliyi 1919-cu il sentyabrın 22-də iqtisad elmləri namizədi Şıxəli Hüseynovun Krımda konsulluq agenti təyin edilməsi üzrə qərar verdi.

Ölkənin quzey sərhədlərinin təhlükəsizliyi məqsədilə isə Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyi 1919-cu ilin sentyabrında bir sıra diplomatik demarşlar edərək Denikin ordusunun Dağıstanda törətdiyi aksiyalara etirazını bildirdi. Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyi Dağıstanla Könüllülər Ordusu arasında neytral zona yaradılmasını tələb edirdi. Sözsüz, bu sahədə Britaniya komandanlığı ilə uğurlu əlaqə də az rol oynamamışdı. Sonda Denikin ordusunun qarşısı qismən alınmış, Britaniyanın mövqeyi bir qədər dəyişdirilmişdi. Sonuncu nəinki Qafqazdakı mövqelərini Denikinə verdi, A.Rayevskinin doğru olaraq söylədiyi kimi, faktiki olaraq Zaqafqaziyanı Könüllülər Ordusundan ayırdı (General Kornun xətti).

1919-cu ilin avqustunda Britaniya qoşunlarını Zaqafqaziyadan geri çəkəndə Azərbaycan Xalq Cümhuriyyəti sərhədlərində dayanan, quzeydə çoxsaylı qələbələr qazanan Könüllülər Ordusu onun yerini tutmadı.

Azərbaycan diplomatiyasının Denikinlə münasibətdə uğurları daha çox sezilirdi. Hətta Denikin 1919-cu il noyabrın 9-da bütün rus zabit və məmurların Azərbaycan ordusunda hərbi xidməti dərhal dayandırmaları haqqında əmr verəndən sonra münasibətlər gərginləşsə də, tamamilə kəsilmədi.

Bundan bir qədər qabaq - noyabrın 6-da Paris Sülh Konfransında Azərbaycan nümayəndə heyətinin başçısı Əlimərdan bəy Topçubaşov Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinə göndərdiyi xəbərdə polkovnik Haskelin onu Denikin ordusunun Azərbaycan Xalq Cümhuriyyətinə hücum edə bilməyəcəyinə əmin etdiyini bildirirdi ki,: "Rusiyanın mərkəzində Denikinin görəcəyi çox işlər var. Sizi

əmin edirəm ki, Denikin Paris Sülh Konfransının Könüllülər Ordusu üçün Quzey Qafqazda təyin etdiyi xəttdən güneyə doğru bir addım.da ata bilməz".

Beləliklə, AXC-nin apardığı uğurlu diplomatik fəaliyyət nəticəsində Denikin tərəfindən Azərbaycan üçün yaradılan təhlükə aradan qaldırıldı.

## ƏDƏBİYYAT

1.Борьба за установление Советской власьти в Дагестане. 1917-1921. гг. Сб.: документов и материалов. М., 1958, ст 257.
2.ARDA f.970, siy 1. iş 162, s.12.
3.ARDA f. 894, siy 10. iş 150, s.1-3.
4.Азербайджанская Демократическая Республика (1918 – 1920). Внешная политика. Баку 1998. ст. 228.
5.ARDA f. 894, siy 10. iş 76, s.23, 7,5,6.
6.«Azərbaycan» qəzeti. 7 iyun, 1919, №117..
7.«Azərbaycan» qəzeti. 12 iyun, 1919, №120..
8.ARDA, f. 897 siy.2, iş 87, səh. 31.
9.ARDA, f. 897 siy.2, iş 38, səh. 58-61.
10.ARDA, f. 897 siy.10, iş 112, səh. 7.
11.ARDA, f. 970 siy.2, iş 120, səh. 20.

**РАБИЛ СУЛЕЙМАНЛЫ**
***Стр.преподователь***

## ДИПЛОМАТИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ АДР НА ПУТИ ПРЕДОТВРАЩЕНИЯ УГРОЗЫ СО СТОРОНЫ ДЕНИКИНА

В статье рассказывается об отношениях АДР – Деникин в 1918 – 1920 гг. После захвата Дагестана Деникином павислa угроза и пад Азербайджаном. Азербайджанское правительство провода решительную деятельность дабилась ликвидации опасности. Деникин не смог осуществить план захвата Азербайджана.

**RABIL SULEYMANLI**
***PHD in history, senior lecturer***

## DIPLOMATIC ACTIVITY OF ADR ON THE WAY

This article is dedicated to the relations between ADR and Denikin. After capture of Daghestan by Denikin was created danger situation for Azerbaijan. The decivive activity of ADP could prevent this situation. Denikin could not realise his plan to capture Azerbaijan.

***Rəyçilər: dos.Z.Bayramov, t.e.d.A.İsgəndərov.***